# Azərbaycan Prokurorluğunun veteranının yubileyi münasibətilə tədbir keçirilib

**Uzun müddət prokurorluq orqanlarında şərəfli xidmət yolu keçmiş Azərbaycan Respublikası Baş Prokurorluğunun Birləşmiş Həmkarlar İttifaqı Komitəsinin sədri və prokurorluğun veteranı Ruslan Hacıyevin 70 illik yubileyi münasibətilə tədbir keçirilib.**



Azərbaycan Respublikasının baş prokuroru Kamran Əliyevin rəhbərliyi ilə keçirilən tədbir zamanı Ruslan Hacıyevin prokurorluq orqanlarında keçdiyi xidmət illərinə nəzər salınaraq, onun qanunçuluq və hüquq qaydasının möhkəmləndirilməsi, insan və vətəndaş hüquq və azadlıqlarının müdafiəsi ilə bağlı əldə etdiyi nailiyyətlər, həmçinin beynəlxalq əlaqələr, ekstradisiya və hüquqi yardım, daha sonra həmkarlar ittifaqı fəaliyyəti sahəsində uzunmüddətli səmərəli fəaliyyəti qeyd edilib.

Ruslan Hacıyev prokurorluq orqanlarında qulluq keçmənin, prokurorluq işçisi kimi qanunçuluq və hüquq qaydalarının təmin olunmasında, dövlətçiliyimizin maraqlarının müdafiə edilməsində xidmət aparmanın qürurverici olduğunu bildirərək göstərilən diqqət və qayğıya görə öz dərin minnətdarlığını bildirib.

Görüşdə tədbir iştirakçıları xatirələrini bölüşərək səmimi söhbətlər edib və sonda xatirə şəkli çəkilib.

Azərbaycan.- 2024.- 21 noyabr (№ 256).- S.2.